No: 02 2026
https://doi.org/10.64400/ea26-02-23
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İSRAİL DÖVLƏTİ ARASINDAKI SİYASİ MÜNASİBƏTLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Ceyhun SƏİDOV**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* ceyhun20021981@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 06.06.2026*
*Nəşr edilmə tarixi: 25.06.2026*

**AÇAR SÖZLƏR:**
Azərbaycan Respublikası, İsrail Dövləti, İkinci Qarabağ müharibəsi, strateji tərəfdaşlıq, hərbi-texniki əməkdaşlıq.

**XÜLASƏ**
1991-ci ildə Sovet İttifaqının süqutundan sonra müstəqilliyini bərpa edən Azərbaycan Respublikasını ilk tanıyan (25 dekabr) dövlətlərdən biri olan İsrail Dövləti tanınmadan sonra rəsmi Bakı ilə əlaqələri davam etdirərək genişləndirmiş, 7 aprel 1992-ci ildə Azərbaycan Respublikası ilə diplomatik münasibətlər qurmuş, 29 avqust 1993-cü ildə isə Bakıda İsrail Dövlətinin səfirliyini açmışdır. Azərbaycan Respublikasının islam dünyası ilə olan həmrəyliyi səbəbindən rəsmi Bakı İsraildə öz səfirliyini daha gec 29 mart 2023-cü ildə açmasına baxmayaraq ölkələr arasında hər zaman yaxın əməkdaşlıq olmuş və zamanla bu münasibətlər yüksələn xətt üzrə inkişaf edərək strateji tərəfdaşlıq xarakteri almışdır. Bakı və Tel-əviv arasındakı münasibətlərin dərinləşməsi bir sıra amillərlə (siyasi, iqtisadi, tarixi, mədəni və s.) əlaqələdir və bu münasibətlərinin şoxşaxəli olmasına baxmayaraq ən sıx əməkdaşlıq 21-ci əsrin əsas çağırışları olan "müdafiə və təhlükəsizlik", "enerji təhlükəsizliyi" kimi həyati vacib sahələrdə daha çox təmərküzləşərək "etibarlı əməkdaşlığa" əsaslanmışdır. İki dövlət arasında strateji tərəfdaşlıq olaraq dəyərləndirilən bu əməkdaşlıq rəsmi Bakının 2020-ci ildə sahədə – İkinci Qarabağ müharibəsində, 2025-ci ildə masada – Vaşinqtonda keçirilən görüşdə Azərbaycanın uzun illərdir əldə etməyə çalışdığı vacib hədəflərinə çatmasında mühüm rol oynamış, tərəflər arasında münasibətlərin daha da dərinləməsi üçün etibarlı zəmin yaratmışdır. Məqalədə qeyd edilənlərin əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının İsrail Dövləti ilə siyasi münasibətlərinin səciyyəvi xüsusiyyətləri, bu əlaqələri şərtləndirən amillər və ölkələr arasında müdafiə-təhlükəsizlik sferasındakı əməkdaşlıq öyrənilərək təhlil edilmişdir.

## GİRİŞ

Azərbaycan Respublikasının müstəqillik qazandıqdan sonra sələfi olan Azərbaycan Demokratik Respublikasının aqibətini yaşamamaq üçün qarşısında duran ən vacib məsələ mövcudluğunu qoruyub saxlamaqda həyati əhəmiyyət kəsb edən təhlükəsizliyi təmin etmək, xarici təhdidləri zərərsizləşdirmək, Ermənistan Respublikası tərəfindən işğal edilən əraziləri azad etmək idi. Qeyd olunanlar səbəbindən dövlətin xarici siyasət kursunda bu istiqamət prioritet olaraq dəyərləndirilmiş, rəsmi Bakı ölkənin müdafiə qabiliyyətinin artırılması, silahlı qüvvələrin potensialının yüksəldilməsi istiqamətində zəruri addımlar atmış, beynəlxalq aləmdə yalnız qalmamaq üçün fəal olaraq etibarlı müttəfiqlər axtarışında olmuşdu. Qarşıya qoyulan məqsədə çatmaq üçün Azərbaycan malik olduğu karbohidrogen ehtiyatları və yerləşdiyi regionun geosiyasi reallıqlarını düzgün dəyərləndirməli, iqtisadi potensialını artırmalı, ölkə daxili stabilliyi təmin etməli, milli gücünü artırmalı, beynəlxalq aləmdə haqlı mövqeyini göstərə bilməli və gələcəkdə sülh yolu ilə paralel, beynəlxalq hüquqa uyğun güc tətbiq edərək ərazi bütövlüyünün təmin edilməsi istiqamətində addımlar üçün normativ-hüquqi baza yaratmalı idi.

Azərbaycan Respublikası işğal altında olan əraziləri sülh yolu ilə geri qaytarmaq üçün uzun müddət çalışsa da bu səylər nəticə verməmiş, nəhayət 2020-ci ildə rəsmi Bakı prezident İlham Əliyevin beynəlxalq konfranslarda dəfələrlə qeyd etdiyi kimi "beynəlxalq hüququ – öz gücü hesabına bərpa etmişdir" (Azertag, 2024). Təbii ki, bütün bunlara asanlıqla nail olunmamış, bunun üçün güclü siyasi iradəyə əsaslanan uzun bir yol qət edilmiş, iqtisadi dayanıqlılıq təmin edilmiş, ölkənin müdafiə qabiliyyətinin artırılması ilə yanaşı, etibarlı müttəfiqliklərin qurulması üçün zəruri addımlar atılmışdır. Azərbaycan belə müttəfiqləri Türkiyə Respublikası, Pakistan və İsrail Dövləti ilə qurulan siyasi münasibətlər sayəsində qazanmış, bu isə öz növbəsində İkinci Qarabağ müharibəsinin, anti-terror

əməliyyatlarının zəfərlə tamamlanmasında, Bakının ədalətli mövqeyinin dünyaya çatdırılmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan-İsrail münasibətlərinin tədqiqi beynəlxalq münasibətlər elminin aktual problemlərindən biri olaraq qalmaqdadır. Bu əlaqələr yalnız ikitərəfli xarakter daşımır, eyni zamanda Cənubi Qafqazın regional təhlükəsizlik arxitekturasına, enerji təhlükəsizliyinə və geosiyasi tarazlığa birbaşa təsir edir. Məhz bu baxımdan Azərbaycan-İsrail siyasi münasibətlərinin araşdırılması və onun səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsi həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir.

## MATERİAL VƏ METODLAR

Tədqiqatda müqayisəli-tarixi, sistem təhlili, sənəd analizi və geosiyasi analiz metodlarından istifadə edilmişdir. Müqayisəli-tarixi metod Azərbaycan-İsrail münasibətlərinin dinamikasını müxtəlif dövrlərdə izləməyə imkan vermişdir. Sistem təhlili metodu vasitəsilə ikitərəfli münasibətlər çoxşaxəli bir bütöv olaraq, yəni enerji, müdafiə, texnologiya, humanitar və geosiyasi ölçüləri ilə birlikdə öyrənilmişdir. Sənəd analizi çərçivəsində iki dövlət arasında imzalanmış müqavilələr, bəyannamələr, rəsmi açıqlamalar, diplomatik yazışmalar, habelə SIPRI, Stimson Center, Atlantic Council kimi beynəlxalq analitik qurumların hesabatları, akademik nəşrlər, mətbuat materialları və elektron informasiya mənbələri tədqiq edilmişdir. Geosiyasi analiz metodu isə Azərbaycan-İsrail tərəfdaşlığının regional güclərin (İran, Rusiya) maraqları ilə əlaqəsini qiymətləndirməyə xidmət etmişdir.

Tədqiqatın mənbə bazasını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi məlumatları, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) hesabatları, İsrail hökumətinin rəsmi bəyanatları, beynəlxalq nüfuzlu elmi jurnallarda dərc edilmiş məqalələr, Azərbaycan və xarici dillərdə qələmə alınmış monoqrafiyalar, habelə elektron informasiya mənbələri təşkil etmişdir.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

**Azərbaycan Respublikasının İsrail Dövləti ilə əməkdaşlığına səbəb olan amillər.** Azərbaycan Respublikası müstəqilliyini qazandığı ilk illərdə ortaq tarixi mədəniyyət, soykökü, dil yaxınlığı baxımından müstəqilliyinin qarantı, dünyaya səsinin çatdırılması, karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasında əsas aktor kimi Türkiyə Respublikasını görmüş və Ankara imkanları daxilində bu mövqedən çıxış etmişdir. Bakı və Ankara arasında bütün sahələrdə, o cümlədən müdafiə sahəsində dərinləşən əməkdaşlığın regiondakı güc balansının addım-addım Azərbaycanın xeyrinə dəyişməsində mühüm rolu olmuşdur. İki dövlət arasındakı hərbi əməkdaşlıq NATO-nun siyasi məqsədlərinə də uyğun idi və Ankara NATO–Azərbaycan əlaqələrinin dərinləşməsini təşviq edən əsas aktorlardan idi. Bakı və Ankara arasında hərbi sahədə ilk əməkdaşlıq 11 avqust 1992-ci ildə imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında müqavilə" ilə başlasa da zamanla daha da dərinləşmiş və 15 iyun 2021-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyəyə çatmışdır.

Buna baxmayaraq ötən əsrin 90-cı illərində Türkiyənin özünün iqtisadi və müdafiə imkanlarının, hərbi sənaye və yeni texnoloji avadanlıqlara çıxış potensialının məhdud olması Bakını beynəlxalq aləmdə nüfuzlu, güclü texnoloji imkanlar və Azərbaycan Respublikasına qarşı dost münasibəti olan beynəlxalq aktorlarla əməkdaşlığa sövq edirdi. Müasir dövrdə dövlətin yetərincə müstəqil hesab edilməsi, sərbəst xarici siyasət apara bilməsi üçün onun bütün sferalarda olduğu kimi təhlükəsizlik və əməkdaşlıq sahələrində də alternativlərinin olmasının zəruriliyi nəzərə alındıqda Bakının İsrail Dövləti timsalında belə bir müttəfiq tapması anlaşılan seçimdir. Daha sonra Azərbaycan Respublikası prezidentinin köməkçisi H. Hacıyev tərəfindən Türkiyədə səfərdə olarkən jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası və İsrail Dövlətinin strateji tərəfdaş olmasına aydınlıq gətirilmiş, İsrailin qərb dövlətləri tərəfindən Azərbaycana tətbiq edilən silah embarqoları zamanı və həmçinin ABŞ-də erməni lobbisinə qarşı balanslaşdırmada əhəmiyyətli rol aldığı etiraf edilmişdir (Hacıyev, 2025).

Beləliklə qeyd edilən periodda Türkiyə Respublikasının Azərbaycanı yetərli səviyyədə dəstəkləyə bilməməsi, Azərbaycana qarşı erməni lobbisinin təzyiqi altında tətbiq edilən embarqolar, alternativlərin olmasının zəruriliyi Bakının İsrail Dövləti ilə hərbi sahə də daxil olmaqla bütün sferalarda əlaqələr qurmasına və yeni texnologiyaların əldə edilməsi istiqamətində mövcud olan ehtiyaclarını Tel-Əvivlə əməkdaşlıq yolu ilə həll etməsinə səbəb olmuş, zamanla bu münasibətlər strateji hesab edilə biləcək səviyyəyə yüksəlmişdir (Çalışkan, 2018).

**Azərbaycan Respublikasının İsrail Dövləti ilə əməkdaşlığının səciyyəvi xüsusiyyətləri.** Azərbaycan Respublikası və İsrail Dövləti arasındakı əməkdaşlıq qarşılıqlı etimad və strateji maraqlara söykənən çoxşaxəli tərəfdaşlıq modeli kimi səciyyələnir. Bu əməkdaşlığın təhlili münasibətlərin aşağıdakı əsas spesifik xüsusiyyətlərini önə çıxarır: enerji layihələri üzrə əməkdaşlıq; təhlükəsizlik və hərbi-texniki əməkdaşlıq; yeni texnologiyalar və innovasiya; humanitar və mədəni əlaqələr; regional və geosiyasi müstəqillik.

**Enerji layihələri.** Son illərin statistik göstəriciləri təhlil olunduqda 2023-cü ilin məlumatlarına əsasən Azərbaycan Respublikasının İsrail Dövlətinə ixrac etdiyi neftin həcmi 1.4 milyard dollar təşkil etmiş, bu da İsrail Dövlətinin həmin il üçün idxal etdiyi ümumi neft həcminin təqribən 65%-ni əhatə etdiyi məlum olmuşdur. 2024-cü ilin ilk 4 ayının məlumatlarına əsasən isə 1 milyon ton Azərbaycan nefti İsrailə idxal olunub, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 28 faiz artımın göstəricisi deməkdir. Yaxın Şərqdə vəziyyətin gərgin olduğu son illərdə də Azərbaycan Respublikası İsrail Dövlətinin Hayfa və Aşdodda yerləşən neftayırma müəssisələrinin neftlə təmin edilməsində əsas mənbə olaraq qalmışdır ki, bu da iki dövlət arasındakı münasibətlərin stabilliyinin əlamətidir (Jam-News, 2024).

Bakı və Tel-Əviv arasında enerji təhlükəsizliyi üzrə əlaqələr daha da dərinləşməkdə davam etmiş və 2024-cü ilin oktyabrında imzalanan müqavilə ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) İsrailin "Tamar" qaz yatağının işlənilməsində 10%-lik pay sahibi olmuşdur. 2025-ci ilin martında isə iki dövlət arasında "Levitan" yatağında (1-ci zona) SOCAR tərəfindən BP tərkibində kəşfiyyat-qazma işləri aparılması üçün müvafiq ikinci tarixi razılaşma imzalanmışdır (Jam-News, 2024). Enerji təhlükəsizliyi sahəsində atılan bu addımlar hər iki dövlətə üstünlüklər qazandırır və qarşılıqlı faydalıdır: İsrail Dövləti öz enerji sektoruna xarici sərmayə cəlb edir, Azərbaycan Respublikası isə iqtisadi mənfəət ilə yanaşı geosiyasi üstünlüklər qazanır və Aralıq dənizində öz təsirini artırır.

**Təhlükəsizlik və hərbi-texniki əməkdaşlıq.** Haqlı olaraq bir çox tədqiqatçılar tərəfindən müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlıq Azərbaycan Respublikası–İsrail Dövləti münasibətlərinin əsası, ana sütunu hesab edilir. Məlumdur ki, son 20 il ərzində İsrail Dövləti Azərbaycan Respublikasının əsas silah tədarükçüsüdür və 2016–2020-ci illərdə Azərbaycanın idxal etdiyi əsas silahların 69%-i İsrail Dövlətinin payına düşürdü. İdxal edilən bu hərbi əmlakların siyahısına pilotsuz uçuş aparatları, raketlər, hava hücumundan müdafiə sistemləri, artilleriya qurğu və mərmiləri və hərbi-sənaye kompleksinin istehsalı bir çox ən yeni müdafiə qurğu və sistemləri daxildir.

İkinci Qarabağ müharibəsi və anti-terror əməliyyatları zamanı Azərbaycan silahlı qüvvələri tərəfindən etibarlı və dəqiq silah və sursatlar olaraq geniş istifadə edilən bu hərbi sənaye məhsulları Ermənistan silahlı qüvvələrinin inventarında olan hərbi sistemlər üzərində nəzərəçarpan üstünlük qazanılmasını təmin etmiş və döyüş şəraitində effektivliyini sübut etmişdir (Shaffer, 2021). Rəsmi Tel-Əviv üçün Azərbaycan, İran İslam Respublikası ilə 700 km-lik sərhədə malik yalnız strateji tərəfdaş olan ölkə deyil, eyni zamanda istehsal etdiyi müdafiə və təhlükəsizlik sistemlərinin aktiv istifadəsi vasitəsilə regionda İsrail Dövlətinin mövcudluğunun güc göstəricisidir. Bu da öz növbəsində İsrail Dövlətinin Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin, hərbi potensialının, təhlükəsizliyinin artırılmasındakı qərarlılığında özünü bariz büruzə verir.

**Yeni texnologiyalar və innovasiya.** İki dövlət arasında əməkdaşlığın səciyyələndirilməsində texnologiya və innovasiyaların əldə edilməsi, mübadiləsinin xüsusi vurğulanması təsadüfi deyil. Tərəflər bu istiqamətdə bütün sahələrdə kibertəhlükəsizlikdən tutmuş, ən yeni texnologiyaların sənaye və müxtəlif istehsalat sahələrində tətbiqinə qədər sıx əməkdaşlıq edir. Məlumdur ki, İsrailin "Technion" institutu ilə birlikdə Azərbaycanda kibertəhlükəsizlik mərkəzi yaradılıb, süni intellekt və

rəqəmsallaşdırma sahəsində geniş əməkdaşlıq layihələri mövcuddur, "ağıllı kənd", "ağıllı şəhər" kimi layihələrdə İsrail şirkətləri işğaldan azad edilən ərazilərdə fəal iştirak edir. Bundan əlavə Azərkosmos və İsrailin İAİ şirkəti arasında da əməkdaşlıq olmasına dair mətbuatda geniş məlumatlar mövcuddur.

Texnologiya və innovasiya sahəsində əməkdaşlığın digər bir nümunəsi Azərbaycan Respublikasının Xəzər dənizinin suyunun şirinləşdirilərək əhaliyə içməli su kimi verilişinin təmin edilməsində İsrailli şirkətlərlə geniş əməkdaşlıq aparmasıdır. İsrail Dövləti bu sahədə dünyada qabaqcıl yerdədir və bu səbəbdən 2022–2023-cü illərdə Azərbaycan İnvestisiya Şirkəti və ADSE "Azərsu" ASC ilə İsrailin "İ.D.E. Water Assets LTD""Merkorot Water Company" şirkətləri arasında Xəzərin suyunun duzsuzlaşdırılması layihələrində iştirak, texniki məsləhət xidmətlərinin göstərilməsinə dair müqavilələr imzalanmışdır (İqtisadiyyat Nazirliyi, 2022).

**Humanitar və mədəni əlaqələr.** Azərbaycan Respublikasında təqribən 30.000-dək yəhudi əsilli vətəndaşın yaşaması, onların heç bir icma və təriqət nümayəndələri tərəfindən təqib edilməməsi burada tolerant bir mühitin mövcudluğunun göstəricisidir. SSRİ-nin süqutundan sonra Azərbaycandan İsrailə köçən və hazırda İsrail Dövləti vətəndaşı olan, təxmini sayları 50.000–70.000 arasında olan azərbaycanlı yəhudi icması Bakı və Tel-Əviv arasında sarsılmaz bağın qurulması, münasibətlərin dərinləşməsində əhəmiyyətli rol oynayır. Azərbaycandakı yəhudilərin, İsraildəki azərbaycanlı yəhudi vətəndaşların Azərbaycana dərin tellərlə bağlılığı iki dövlət arasında humanitar və mədəni əlaqələrin bünövrəsini təşkil edir.

Humanitar və mədəni əlaqələri nəzərdən keçirərkən diqqətə alınmalı vacib məqamlardan biri də yəhudi diasporunun rəsmi Bakıya verdiyi dəstəkdir. Rəsmi Bakı Tel-Əvivlə qurduğu uğurlu əməkdaşlıq sayəsində nüfuzlu yəhudi lobbisinin dəstəyinə nail ola bilmiş, Azərbaycanın Qarabağ münaqişəsi ilə əlaqəli mövqeyinin və real həqiqətlərin dünyaya çatdırılmasında, Azərbaycana qarşı 907-ci düzəlişin dayandırılmasında diasporanın köməyindən istifadə etmişdir. Azərbaycanın dünyadakı 57 müsəlman dövləti arasında ən böyük yəhudi icmasına ev sahibliyi etməsi iki dövlət arasındakı siyasi, humanitar əlaqələrin, strateji münasibətlərin formalaşmasında münbit mühit yaratmışdır (Ruintən, 2022, s. 118).

**Regional və geosiyasi müstəqillik.** Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı siyasi əlaqələrin bünövrəsində tarixi, coğrafi və strateji tərəfdaşlıqla yanaşı hər iki ölkənin oxşar təhlükəsizlik problemləri, bənzər təhdidlərlə sınanmaları və stabillik, siyasi müstəqillik üçün bir-birinə ehtiyac duymaları da əhəmiyyətli yer tutur. İran İslam Respublikasının regiona təsiri və təhdid imkanları Bakı və Tel-Əvivi daha da yaxınlaşdırdı. Azərbaycan Respublikası və İsrail Dövlətinin əlaqələrinin inkişafının beynəlxalq aləmdə doğurduğu ən əsas nəticə Bakının Rusiya Federasiyası ilə ABŞ arasında tarazlaşdırılmış siyasət apara bilməsi üçün zəmin yaratmasıdır (Pinfold & Peters, 2021, s. 37).

Müsəlman dövlət olan Azərbaycanla əlaqələrin dərinləşməsi İsrail dövlətinə dünyada ona qarşı irəli sürülən yəhudi-müsəlman ayrı-seçkiliyinin səbəbkarı olması iddialarının puç olmasında və müsəlman dövlətləri ilə əməkdaşlığın mümkünlüyünün beynəlxalq aləmdə qəbul edilməsində əhəmiyyətli yer tutdu (Özdaşlı, 2017, s. 181).

İran İslam Respublikası Azərbaycanın İsrail Dövləti ilə olan münasibətlərinə daim qarşı çıxmış, bunu müsəlman dövlətlərə, islam birliyinə qarşı sionistlərlə iş birliyi kimi qiymətləndirmişdir. Müstəqillik qazanandan sonra İran daxilində yaşayan çoxmilyonlu azərbaycanlıların milli hərəkatının başlayacağından ehtiyat edərək anti-azərbaycan siyasi kurs güdmüş, Qarabağ münaqişəsində və müharibə zamanı, müharibədən sonrakı dövrdə daha çox Ermənistanyönümlü siyasi kurs izləmişdir. Tehran güclü və xarici siyasətdə müstəqil Azərbaycanı İranın bütövlüyünə təhdid qiymətləndirdiyi üçün bəzən rəsmi Bakıya qarşı çox sərt ifadələr istifadə etmiş, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirəcək dəhlizi özünün "qırmızı xətti" hesab etmiş, Azərbaycanla sərhəddə təlimlər keçirməklə güc nümayiş etdirərək mövqeyini qəti ifadə etmişdir (BBC Türkce, 2023). Bütün bunlara baxmayaraq Bakı öz siyasi kursuna sadiq qalmış, İran və Rusiya kimi regional güclərin təsirini zərərsizləşdirmək üçün Türkiyə Respublikası, İsrail Dövləti və ABŞ ilə münasibətlərini quraraq balanslaşdırılmış müstəqil xarici siyasət aparmağa davam etmiş, məqsədinə böyük ölçüdə nail olmuşdur.

2023-cü ildə Azərbaycan Respublikasının İsraildə səfirliyi açılmış, açılışda çıxış edən İsrail Xarici İşlər Naziri E. Kohen "Azərbaycan və İsrail İran təhdidi ilə qarşı-qarşıyadır. İrana qarşı birlikdə müqavimət göstərməliyik, İranın nüvə qabiliyyətinin artmasının qarşısını almalıyıq" deməklə iki dövlətin Tehranın təhdidlərinə qarşı birgəliyinin vacibliyini vurğulamışdır (BBC Türkce, 2023).

"Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycan neftinin Bakı-Tiflis-Ceyhan kəməri vasitəsilə dünya bazarına çıxarılması kimi enerji layihələrinin ərsəyə gəlməsində yəhudi lobbisinin rolu barədə açıq mətnlərdə kifayət qədər informasiyalar mövcuddur. Bunlardan əlavə İsrail Dövlətinin Azərbaycan Respublikasına təhlükəsizlik-müdafiə sahəsində və digər enerji layihələrində də dəstək verməsi rəsmi Bakının regionda və beynəlxalq arenada daha müstəqil siyasi kurs yeritməsində mühüm rol oynamışdır. 8 aprel 2025-ci ildə Abu-Dabidə görüşən Azərbaycan və İsrail xarici işlər nazirləri 2024-cü ildə iki dövlət arasında ticarət dövriyyəsinin 1.5 milyard dolları keçdiyini qeyd etmişlər (Azərbaycan XİN, 2025).

İsrail Dövlətinin baş naziri B. Netanyahunun 2025-ci ilin mayında Azərbaycana planlanan səfərinin və noyabr 2025-ci ildə Bakıda keçirilməsi planlaşdırılan Avropa Ravvinləri Konfransının təxirə salınması dövlətlər arasındakı münasibətlərdə anlaşılmazlıq kimi dəyərləndirilməməlidir. Belə ki, il ərzində rəsmi Bakı və Tel-Əviv arasında sıx təmaslar davam etmiş, 2025-ci ilin avqust ayında isə ABŞ prezident administrasiyasının "Azərbaycanın və bəzi Mərkəzi Asiya dövlətlərinin 'İbrahim anlaşmaları'na qoşulmasının vacibliyini" qeyd etməsi Azərbaycan Respublikası və İsrail Dövləti münasibətlərinin sarsılmazlığını və əhəmiyyətini vurğulamış oldu (AzerNews, 2025).

Azərbaycan Respublikasının İsrail Dövləti ilə strateji tərəfdaşlığı onun regionu öz təsir zonası hesab edən Rusiya ilə münasibətlərində də daha sərbəst addımlar atmasına müəyyən qədər təsir edir. Strateji müttəfiqlər olan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında AZAL-a məxsus təyyarənin vurulması, azərbaycanlı Rusiya vətəndaşlarına, diaspora rəhbərlərinə qarşı Moskvanın atdığı addımlar kimi sərt təzyiqlərə qarşı ciddi müqavimət Bakının müttəfiqləri ilə qurduğu strateji əməkdaşlıqlar sayəsində mümkün olmuş və nəticə etibarı ilə Azərbaycan müstəqil siyasi kursunu davam etdirməyi bacarmışdır. SOCAR-ın İsrailin "Tamar" qaz yatağının işlənilməsində 10%-lik pay sahibi olması təkcə Azərbaycanın müstəqil olaraq Aralıq dənizinə çıxması, Avropanın enerji təhlükəsizliyindəki rolunun artması demək deyil, eyni zamanda Rusiyanın enerji ilə əlaqəli xarici siyasətinə qarşı da atılmış çox güclü bir addımdır (Stimson Center, 2025).

Azərbaycan Respublikasının Türkiyə Respublikası və İsrail Dövləti ilə münasibətlərində izlədiyi yol rəsmi Bakının diplomatik imkanlarının artdığını və stabilləşdirici rolunun gücləndiyini göstərməkdədir. Azərbaycan Respublikası İsrail Dövləti ilə Türkiyə Respublikası arasındakı əlaqələrin normallaşmasında diplomatik səy göstərmiş, müəyyən mənada uğurlu da olmuşdur. Prezident İ. Əliyev müsahibələrinin birində bu mövzuda çıxış etmiş, dostlarımız arasında münasibətlərin normallaşmasını arzu etdiyini bildirmişdir. Azərbaycanın təsirli şəkildə apardığı bu "səssiz diplomatiya" ən son Suriya məsələsində İsrail Dövləti və Türkiyə Respublikasının təhlükəsizlik gücləri arasında müəyyən ortaq anlaşmaların yaranmasına səbəb olmuşdur.

Yuxarıda qeyd edilənləri analiz etdikdə Azərbaycan Respublikası–İsrail Dövlətinin strateji münasibətlərinin Bakının regional və geosiyasi arenada müstəqil addımlar atılmasında mühüm yer tutduğu aydın görünür.

## NƏTİCƏ

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı strateji hesab edilən münasibətlər yalnız iki dövlət arasında qarşılıqlı mənfəət və ortaq maraqların təmin edilməsini göstərən əlaqələr olmayıb, eyni zamanda regional təhlükəsizlik arxitekturasının yenidən şəkilləndirilməsində əsas istiqamətverici birliyə çevrilmişdir. Regional səviyyədə bölgədə maraqlı olan aktorların qüvvələr balansında dəyişikliklər, qlobal səviyyədə geosiyasi təlatümlərə baxmayaraq Bakı və Tel-Əviv arasındakı əlaqələrin davam və inkişaf etdirilməsi güclü siyasi iradənin və iqtisadi qarşılıqlı asılılığın mövcudluğunun nəticəsinde mümkün olmuşdur. Gələcək illərdə bu əlaqələrin Cənubi Qafqaz–Yaxın Şərq xəttində stabillik, enerji təhlükəsizliyi və diplomatik təmaslarda əsas hərəkətverici amil olması ehtimal edilir.

İqtisadi sahədə enerji daşıyıcılarının ticarəti iki dövlət arasında strateji bağlılığın təməlini formalaşdırmışdır. Bakı-Tiflis-Ceyhan boru kəməri vasitəsilə İsrail Dövlətinin enerji təhlükəsizliyi ciddi şəkildə təmin edilmiş, yaxınlıqdakı ərəb dövlətlərindən olan asılılıq minimuma endirilmişdir. Enerji təhlükəsizliyinin təmin edilməsi qarşılığında İsrail Azərbaycana ən müasir müdafiə-təhlükəsizlik sistemlərini, heç bir dövlətə ixrac etmədiyi ən yeni texnologiyaları, kənd təsərrüfatı və sənayedə istifadə üçün innovativ xidmət və avadanlıqları ixrac etmişdir.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı əməkdaşlıq demək olar ki, bütün sahələri əhatə etdiyindən (təhlükəsizlikdən–yeni texnologiyalara, kənd təsərrüfatından–səhiyyəyə, enerjidən–nəqliyyata, kosmik sənayedən–təbii ehtiyatların idarəsinə qədər) bu əməkdaşlığı strateji tərəfdaşlıq, yüksək səviyyəli etimad və tarixi köklərə əsaslanan dostluq kimi xarakterizə etmək olar. Münasibətlərin göründüyündən daha dərin olması isə WikiLeaks-ə sızdırılmış 2009-cu ildə ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər müvəkkilinin Dövlət Departamentinə göndərdiyi teleqramda – prezident İlham Əliyev tərəfindən Azərbaycan ilə İsrail arasındakı münasibətlərin aysberqə bənzədilməsi və onun onda doqquzu suyun altında olması – sitatında görmək mümkündür.

Azərbaycan Respublikası və İsrail Dövləti arasındakı əlaqələrin daha dərinləşdirilməsi və üst səviyyələrə keçməsi Cənubi Qafqazda regional təhdidlərin qarşısının alınmasında bir tarazlaşdırıcı güc faktoru kimi çıxış edəcək. İranın, Ermənistanın apardığı xarici siyasət, həmçinin Rusiyanın Ukrayna ilə olan müharibədən sonra diqqətini Cənubi Qafqaz üzərinde artıracağı nəzərə alındıqda yaranacaq bu geosiyasi mühitdə Azərbaycan Respublikasının İsrail Dövləti və onun ciddi lobbi gücünün olduğu ABŞ ilə münasibətlərinin rəsmi Bakının mövqelərinin gücləndirilməsində və ya ən azından ona istiqamətlənən təhdidlərin zərərsizləşdirilməsində həlledici rol oynayacağı şübhəsizdir.

Yekun olaraq İsrail Dövlətinin Azərbaycan Respublikası ilə olan yaxınlığı ortaq strateji maraqların təzahürüdür: İsrail üçün – bölgədə İranın təsirinin azaldılması, onun İsrailə loyal münasibət bəsləyən dövlətlərlə əhatəyə alınması, dünyaya yəhudi-müsəlman tərəfdaşlığının göstərilməsi; Azərbaycan üçün – regional güclərin təsir imkanlarının balanslaşdırılması, enerji təhlükəsizliyi, ən yeni texnologiya və silahlara çıxış imkanlarının əldə edilməsi. Bu qarşılıqlı maraqlar ölkələrin strateji tərəfdaşa çevrilməsi, regional təhlükəsizlik arxitekturasının şəkilləndirilməsindəki hərəkətverici amil olaraq qalmaqda davam edir.

## ƏDƏBİYYATLAR


AzerNews. (2025, avqust 2). Azerbaijan among key candidates for expanded Abraham Accords under Trump initiative. https://www.azernews.az/nation/245472

Azertag. (2024, mart 14). Prezident: biz beynəlxalq hüququ özümüz bərpa etdik və göstərdik ki, güclü siyasi iradəmiz, potensialımız var. http://azertag.az/xeber/prezident_biz_benelxalq_huququ_ozumuz_berpa_etdik_ve_gosterdik_ki_guclu_siyasi_irademiz_ptensialimiz_var-2948599

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. (2025, aprel 8). Nazir Ceyhun Bayramovun İsrail Dövlətinin XİN Gideon Saar ilə görüşünə dair mətbuat məlumatı. https://mfa.gov.az/az/news/no13725

BBC Türkce. (2023, aprel 11). İran ve Azerbaycan arasında gerilim neden arttı? https://www.bbc.com/turkce/articles/c51kzkg4j48o

Çalışkan, B. (2018). İsrail'in Güney Kafkasya Stratejisi (İNSAMER Araştırma No. 88). İNSAMER. https://docplayer.biz.tr/113800906.html

Hacıyev, H. (2025, iyun 3). Hikmət Hacıyev Türkiyəli jurnalistlərə səsləndi... Tezadlar.az. http://tezadlar.az/hikmet-haciyev-turkiyeli-jurnalistlere-seslendi/

İqtisadiyyat Nazirliyi. (2022, oktyabr 10). Azərbaycan İnvestisiya Şirkəti ASC və İ.D.E. Water Assets LTD arasında anlaşma memorandumu imzalanıb. https://economy.gov.az/en/post/929/azerbaycan-investisiya-sirketi-asc-ve-ide-water-assets-ltd-arasinda-anlama-memorandumu-imzalanib

Jam-News. (2024, noyabr 24). In shadow of the Gaza war: peak in Azerbaijan-Israel relations. http://jam-news.net/in-shadow-of-the-gaza-war-peak-in-azerbaijan-israel-relations/

Özdaşlı, E. (2017). İsrail'in yeni çevre stratejisinde Güney Kafkasya. Bilig, 82, 175–200.

Pinfold, R. G., & Peters, J. (2021). The limits of Israel's periphery doctrine: Lessons from the Caucasus and Central Asia. Mediterranean Politics, 26(1), 25–49. https://doi.org/10.1080/13629395.2019.1601980

Ruintən, K. (2022). Azərbaycan-İsrail əməkdaşlığını şərtləndirən amillər. Müdafiə sahəsində əməkdaşlıq. Tarix və onun problemləri, 1, 112–124.

Shaffer, B. (2021, dekabr 3). Israel's role in the Second Armenia-Azerbaijan War. Foundation for Defense of Democracies. https://www.fdd.org/analysis/2021/12/07/israels-role-armenia-azerbaijan-war/

Stimson Center. (2025, mart 11). Azerbaijan's deepening energy ties with Israel. https://www.stimson.org/2025/azerbaijans-deepening-energy-ties-with-israel/

## SUMMARY

## CHARACTERISTIC FEATURES OF POLITICAL RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE STATE OF ISRAEL

**Jeyhun Sayidov**
**Baku Slavic University, Baku, Azerbaijan**

The article analyzes the factors contributing to the establishment of strategic cooperation between the Republic of Azerbaijan and the State of Israel. It is argued that during the early years of independence, Turkey's limited technological capacity and Western arms embargoes prompted Baku to seek reliable international partners to ensure its security and sovereignty. The partnership with Tel Aviv emerged as a vital alternative, facilitating access to advanced military technologies and balancing Armenian lobby pressures in the USA. The study highlights that Azerbaijan's cooperation with Israel has evolved into a multifaceted strategic model encompassing energy projects, security, and innovation. The author concludes that this relationship is characterized by mutual trust and geopolitical alignment, serving as a key factor in regional stability and the enhancement of Azerbaijan's defense capabilities.

***Keywords*****:** *The Republic of Azerbaijan, the State of Israel, the Second Karabakh War, strategic partnership, military-technical cooperation*

## РЕЗЮМЕ

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ГОСУДАРСТВОМ ИЗРАИЛЬ

**Джейхун Сеидов**
**Бакинский славянский университет, Баку, Азербайджан**

В статье анализируются факторы, обусловившие становление и развитие стратегического партнерства между Азербайджанской Республикой и Государством Израиль. Автор обосновывает, что в условиях ограниченности ресурсов Турции в 1990-х годах и действия западных оружейных эмбарго, Баку был вынужден искать альтернативных партнеров для обеспечения национальной безопасности. Сотрудничество с Тель-Авивом позволило Азербайджану диверсифицировать внешнюю политику и получить доступ к высоким технологиям. Особое внимание уделяется роли Израиля в нейтрализации армянского лобби в США и военно-техническом обеспечении. В работе подчеркивается, что современные отношения сторон характеризуются многогранностью, охватывая энергетику, инновации и гуманитарную сферу, что превратило их в модель устойчивого стратегического альянса, отвечающего геополитическим интересам обеих стран.

***Ключевые слова*****:** *Азербайджанская Республика, Государство Израиль, Вторая Карабахская война, стратегическое партнерство, военно-техническое сотрудничество*